# “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında” 2014-cü il mayın 12-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Fransa Respublikası Hökumətini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 iyun 2014-cü il
№ 205

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Fransa Respublikasının Kənd Təsərrüfatı, Ərzaq Emalı Sənayesi və Meşəçilik Nazirliyi,

iki ölkə arasında yüksəksəviyyəli ikitərəfli münasibətlər çərçivəsində və kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişaf etdirilməsi vasitəsilə iki ölkə arasında mövcud dostluq münasibətlərini daha da gücləndirmək və dərinləşdirmək niyyətində olaraq,

hər iki ölkənin iqtisadi inkişafında kənd təsərrüfatı sahəsinin vacibliyini etiraf edərək,

kənd təsərrüfatı sahəsində iqtisadi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri daxilində milli qanunvericiliklərinə və iştirak etdikləri beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə uyğun olaraq, hər iki ölkənin kənd təsərrüfatı məhsullarının istehsalı və ərzaq emalı sənayesi sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri, şirkətlər, qurumlar və təşkilatlar arasında əlaqələrin yaradılmasına kömək edəcəklər.

Maddə 2

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində səmərəli əməkdaşlığı inkişaf etdirmək üçün aşağıda göstərilən istiqamətlərdə birgə fəaliyyət göstərəcəklər:

- Tərəflər arasında kənd təsərrüfatı və ərzaq sənayesi sahələrində ticarətin və investisiyaların qarşılıqlı surətdə təşviq edilməsi;
- heyvandarlıq sahəsində yüksək məhsuldar cins heyvanların əldə edilməsi məqsədi ilə kənd təsərrüfatı heyvanlarının süni mayalanması, saxlanması və yemlənməsi, südlük və ətlik heyvandarlıq sahəsində təcrübə mübadiləsi;
- üzümçülük və şərabçılıq sahələrində xüsusilə də şərab istehsalında müasir texnologiyaların tətbiq edilməsinin təşviqi, şərab marketinqi və coğrafi göstəricilərin qorunması məsələləri üzrə əməkdaşlıq;
- bitki sortları, toxumlar və ting istehsalı sahəsində əməkdaşlıq;
- Azərbaycan Respublikasının baytarlıq, fitosanitariya və qida təhlükəsizliyi sahəsindəki qaydalarının Avropa İttifaqının bu sahələrdəki prosedurlarına uyğunlaşdırılması məqsədi ilə beynəlxalq standartların və Fransa Respublikasının təcrübəsinin təşviq edilməsi;
- iki ölkə arasında ticarət maneələrinin aradan qaldırılması məqsədi ilə sanitar və fitosanitar sahələrdə institusional əməkdaşlıq;
- ekoloji təmiz (orqanik) kənd təsərrüfatı məhsullarının istehsalı, sertifikatlaşdırılması və marketinqi üzrə məlumat mübadiləsi;
- Azərbaycan Respublikasının və Fransa Respublikasının kənd təsərrüfatı üzrə tədqiqat institutları və aqrar təhsil müəssisələri arasında birbaşa əlaqələr yaradılmasının dəstəklənməsi vasitəsilə iki ölkənin kənd təsərrüfatı tədqiqat institutları və aqrar universitetləri arasında əməkdaşlıq;
- könüllülük prinsipi əsasında torpaqların konsolidə edilməsi, kooperativlərin və kənd təsərrüfatı sahəsində istehsalçı birliklərinin yaradılması üzrə təcrübə mübadiləsi;
- aqrar emal sənayesini təmsil edən iqtisadi agentlərin və mütəxəssislərin Azərbaycan Respublikasında və Fransa Respublikasında təşkil edilən simpoziumlarda, konfranslarda, iqtisadiyyat üzrə missiyalarda, kənd təsərrüfatı və şərabçılıq üzrə yarmarkalarda və sərgilərdə iştirakının dəstəklənməsi.

Tərəflərin qarşılıqlı razılığına əsasən, əməkdaşlığın digər istiqamətləri müəyyən edilə bilər.

Maddə 3

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlığı təşviq etmək və tənzimləmək məqsədi ilə Azərbaycan Respublikasında, yaxud Fransa Respublikasında görüş keçirə bilərlər və özlərinin müvafiq səfirlikləri vasitəsilə əlaqə saxlayacaqlar.

Tərəflər mümkün olduğu təqdirdə, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı üzrə Avropa İttifaqının Şərq Tərəfdaşlığı və digər müvafiq proqramları tərəfindən təklif edilən alətlərdən istifadə edəcəklər.

Maddə 4

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlığı öz milli qanunvericiliklərinə və iştirakçısı olduqları beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə uyğun olaraq öz səlahiyyətləri daxilində həyata keçirəcəklər.

Maddə 5

Tərəflər bu Anlaşma Memorandumundan irəli gələn məsələlər barədə məsləhətləşmələr aparacaqlar. Məsləhətləşmələrin keçiriləcəyi tarix, yer, mövzu və xərclərin ödənilməsi qaydası Tərəflərin qarşılıqlı razılığı əsasında müəyyənləşdiriləcəkdir.

Maddə 6

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək fikir aynlığı Tərəflər arasında diplomatik kanallar vasitəsilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna onun ayrılmaz hissəsi olan, ayrıca protokollarla rəsmiləşdirilən və bu Anlaşma Memorandumunun 8-ci maddəsi ilə müəyyən olunan qaydada qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2014-cü il 12 may tarixində, Azərbaycan və fransız dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının<br>Kənd Təsərrüfatı Nazirliyi<br><br>adından**<br>*(imza)* | **Fransa Respublikasının<br>Kənd Təsərrüfatı, Ərzaq Emalı<br>Sənayesi və Meşəçilik Nazirliyi<br>adından**<br>*(imza)* |